# ZƏNGANIN AŞIQ DASTANLARINDA DƏDƏ QORQUD BOYLARININ İZLƏRİ

## Dede Qorqud Fictions Footprint in Zəngan Ashiq Stories

**Zənganlı Məhəmməd RƏZZAQI***

***Özet:*** *Son araştırmalarda İran ölkəsinin yeddi aşıq mühiti Dr. Əli Kafkasyalı tərəfindən təsbit olunmuşdur. Bu mühitlərdən biri də Zəngan (Zəncan) aşıq mühiti sayılır. Bu bildiridə Zənganda topladığımız aşıq dastanlarında Dədə Qorqud boylarının izləri görünməkdədir. Dastanların ortaq bölümləri burada açıqlanmışdır.*
***Anahtar Kəlimələr**: Zəngan, Aşıq, Dastanlar, Dədə Qorqud, Boylar*

***Abstract:*** *According to the last studies, seven İranian Ashiq spaces are described by Dr. A Kafkasyali. One of those is the Zəngan (Zencan) Ashiq space. The footprint of some short parts of Dedeqorqud fictions, in which we gathered in Zengan Ashiq space are shown in this assay. We will describe the dependent parts of the stories here.*
***Key words:*** *Zengan, Ashiq, Stories, Dede Qorqud, Fictins,*

### Giriş

### I. Yurtdışında İran Aşıq Mühitlərinə Görə Aparılan Çalışmalar

İran Azərbaycanında indiyə qədər yeddi aşıq mühiti təsbit olunmuşdur. Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasında çalışan Məhərrəm Qasımlı 1994-95- ci illərdə ölkəmizdə apardığı araşdırmalarında altı aşıq mühitini təsbit edir. Məhərrəm Qasımlı "Ozan- Aşıq Sənəti – 1996" kitabında 16 aşıq mühitini bizə belə tanıtdırır: 1- Gəncə basar 2- Borçalı 3- Göyçə 4- Dərələyəz 5- İrəvan 6- Çıldır 7- Şirvan 8- Dərbənd 9- Qarabağ 10- Naxçıvan 11- Qaradağ/ Təbriz 12- Urmiyə 13- Zəngan 14- Xorasan 15- Qum sava 16- Qaşqayı. Zəngan aşıq mühitinə görə, bu kitabda qısa və önəmli bilgilər verilir.

İkinci Əli Kafkasyalı – Ərzurum Atatürk Bilimyurdunda çalışan araşdırıcı 2004-06- cı illərdə yurdumuzu başa baş dolanaraq, yeddi aşıq mühitini bilimsel

* Zənjan Pəyam-e Nur Üniversitəsi, İlahiyat və Tarix– e Milləl, Lisans Öğrəncisi Ozan.
zanganli@gmail. com

açıdan araşdırıb, yenidən təsbit edir. 2006-ci ildə yayımladığı "İran Türkləri Aşıq Mühitləri" kitabında Sulduz Qara Papaq aşıq mühitini də əlavə etdi. Bu kitab 2009-cu ildə Salkım Söğüt Evi tərəfindən 2-ci dəfə nəşr edildi.

Üçüncü olaraq İlqar Cəmiloğlu İmamverdiyev 2005-6-ci illərində yurdumuzu dolanaraq araşdırmalar aparır. O, yerli və özəl aşıq havalarını toplayaraq "Azərbaycan və İran Aşıq Sənətinin Qarşılıqlı Əlaqələri" kitabını 2008-ci ildə yayımladı.

## II. Zəngan`ın Demografik Yapısı

Türk aşıqlıq gələnəyinin canlı olaraq yaşadığı önəmli mühitlərindən biri də Zəngan aşıq mühitidir. Bu mühit Xəzər dənizinin güney batısındakı ən qədim türk yurdları olan Zəngan, Sultaniyə başda olmaqla, Xurrəmdərə, Əbhər, Qeydar, Hidəc, Tikab, Bicar, Tarım oliya (yuxarı tarım) Mannışan (mahnişan), Icrut, Takistan, Qəzvin, Lovşan, Nikbey (nikpey) il və ilçələrini əhatə etməkdədir. Bölgədə əfşar, ağqoyunlu, emurlu, qaraxanlu, kurdbeçə, sədlu, sarıcalu, ostəclu kimi türk boyları məskundur. (Kafkasyalı, 2009)

## III. Zəngan Aşıq Mühitinin Tanıtımı

Bu bölgənin ən qədim aşıqlarından biri "Şirin ilə Birçək xanım" adlı məşhur xalq hekayəsinin müəllifi Aşıq Şirindir. Şeirlərində keçən ifadələrdən onun 450-500 il öncə yaşadığı təxmin edilməkdədir. (Kafkasyalı, 2009) Zəngan aşıqlığının (adlarına) təşəkkülündə dastan qoşulmuş Aşıq Şirin və Aşıq Yusuf Camal adlı orta çağ aşıqlarının mühüm xidməti olmuşdur. (Qasımlı, 2007) Zəngan aşıq mühitinin aşıqları üç instrumental alətdə saz, balaban və qaval ilə sənətlərini ifa etməkdədirlər. Sazları 20 pərdəli, doqquz qulaqlı, doqquz simlidir. Aşıq sağ başda, qavalçı sol başda və balabançı ortada olmaqla, bir hilal şəklində bir-birlərini görür vəziyyətdə ayaqda durarlar. Aşıq şef durumundadır. Balabançılar da ikinci xanəndə (solist) vəzifəsini icra edirlər. Bəzən də aşıq və balabançı birlikdə və ya qarşılıqlı oxuyurlar. (Kafkasyalı, 2009)

Zəngan aşıq mühitində qırxdan artıq xalq hekayəsi və dastan vardır. Bu hekayələrin bəziləri digər aşıq mühitlərinə aid xalq hekayələridir. Bir qismi təmamən Zəngan aşıq mühitinə özgüdür. Zəngan aşıq mühitinə özgü xalq hekayələrini belə sadalamaq olar: Tilimxan ilə Mehri, Şirin ilə Birçək xanım, Tuti-Şirin Süxən və Yusuf Camal, Vərqa ilə Gülşən, Kəlbi ilə İnsan xanım, Yetim Seydi.

Təbriz aşıq mühitində xalq hekayəsi olan "Qurbani" adlı hekayənin burada "Zənganlı Qurbani" olaraq təsnif edildiyi görünməkdədir. Xəstə Qasım adlı hekayə də burada xeyli fərqli bir oluşum qazanmışdır. (Kafkasyalı. 2009)

Sultaniyədə yatan Məhəmməd Xudabəndə Ulcaytonun türbəsi, dərgahı və təkkəsi Zənganda yatan Tuğrul bəyin eşi Altunca xatunun türbəsi, dərgahı və təkkəsi türk aşıqlıq gələnəyini Zənganda bəsləyən qaynaqlardan sayılır. (Kafkasyalı, 2009)

Keçən yüzildə Zənganın aşıqlarından: Aşıq Noruz, Aşıq Zülfəli, Aşıq Həmdulla, Aşıq Kiramət, Aşıq İzzət Əzizi, Aşıq Kazım, Aşıq Bəşir və başqalarının adlarını saymaq olar. Bu mühitdə aşıq sənətini canlı yaşadan aşıqlarımızın sayı 50-dən yuxarıdır.

Günümüzdə Zəngan aşıqlarının ustadı Müslüm Əsgəri hesab olunur. Saz-söz əhli bu şəxsi sənət aləmində özlərinə ağsaqqal sanırlar. (İmamverdiyev, 2008)

Zəngan aşıq mühitində aşıq havaları xeyli fərqlilik ərz etməkdədir. Aşıq havalarının repertuarında bulunan havaların çoxu bu bölgə aşıqlarına aid havalardır. Bəzi saz havalarının adları digər bölgə aşıq havaları ilə bənzər olsa da, məzmunu fərqlidir. Bu bölgə aşıq havalarının çoxu bölgəyə özgü özəlliklər daşımaqdadır. (Kafkasyalı, 2009)

Zənganın özəl yerli havaları dörd bölgədən oluşmaqdadır: 1- Tarım 2- Zəngan Çayı 3- Həcərut 4- Sucas Çayı. (Əzizi, 2001) 30-dan yuxarı olan Zənganın yerli havalarından 23 ədədi bizim tərəfimizdən qeydə alınmışdır. Qeydə alınan havaların adları belədir:

1. Vəlicani
2. Dübeyti
3. Şəhriyari
4. Qafiyə
5. Bala Şəhriyari
6. Şikəstə
7. Zəngan Çayı Qafiyəsi
8. Qız Qeytərən
9. İskəndəri
10. Gecə Kərəmi
11. Dik Osmanlı
12. Yorqun Kərəmi

13. Coşqun Kərəmi
14. Kəsmə Kərəmi
15. Tək hava
16. Meşkini
17. Gərmuvu
18. Haleyli
19. Əkbəri
20. Eyvazi Koroğlu
21. Sarı Torpağı
22. Sallama Geraylı
23. Zəngan Koroğlusu

## IV. Ortaq İzlər

### Oğulu, Ataya Çuğullamaq

Dirsəxanın oğluna ad veriləndən sonra Dirsəxanın başında olan qırx igid Buğaca paxıllıq edirlər. Gəlib buğacı atasına çuğullayırlar.

"...görürmisən Dirsə, nələr oldu? Yarımasun, yarçımasun, sənin oğlun kor qopdı, ərcəl qopdu. Qırq yigidin boyuna aldı. Qalın oğuzın üstinə yürüş etdi.

...Sən varikən av avladı, quş quşladı, anasının yanına alub gəldi. Al şərabın itisindən aldı içdi, anasılə söhbət elədi, atasına qəsd elədi, ..." (Məhəmmədxani 1999: s 46)

Şah İsmayıl yurduna döndükdən sonra şəhərin eşiyində bir dam-daş salır. Xanımları ilə birlikdə orda qalırlar. Vəzir (baxan) burada Şah İsmayılı aradan götürmə fikrinə düşür. Buna bir tasarı tökür.

"...Vəzir gəlib Şah İsmayılın xanımlarını gördü. Bu qəzayanı nəql elədi Şah İbrahıma. Demərsən Şəhzadə gedib. Özgə yerdən 2 dənə xanım gətirib. Vallahı billahı, beyni beynəllah inanmıram Xudavəndin beheştində bu gözəllərdən ola. Şah İbrahım fərib yidi (allandı). Dedi: neyliyək? neynəməyək? Dedi: nəqşə çəkin bəs nə tur bunu biz ələ gətirək?..." (Əsgəri, 1974-5)

### Oğul Öldürmə Tasarısı

Dirsəxanın igidləri Buğacı çuğulladıqdan sonra Dirsəxan deyir: Onu çağırın gəlsin. Öldürərəm. Belə oğul mənə yaraşmaz. Nökərlər belə deyirlər:

“...Biz sənin oğlun (oğlını) necə gətürəlim? Sənin oğlın bizim sözimizi almaz. Bizim sözimizlə gəlməz... yanına alub ava çıqgıl! Quş uçurub. Av avlayub oğlını oxlayıb, öldürə gör gil!..." (Məhəmmədxanı, 1999, s.47)

Şah İsmayıl üç xanımı ilə birlikdə öz topraqlarına gəlirlər. Atasının baxanları İbrahım şahı yoldan çıxardırlar. Şah İsmayılın öldürməsinə nəqşə tökürlər.

“...Vəzir dedi: bəs padşah sağ olsun. İstərsən bu rəqəm biz eləyək. Dəstur verək şahzadə gəlsin bura sənlən bir qərar kəsin bir təriqilən oynuyun ta onun beləxərə qolların bağlatdırıb, öldürək.” (Əsgəri, 1974-5)

**Xızır Həzrətlərinin Gəlməsi və Qurtuluş**

Buğac yaralı ikən başının üstünə Boz atlı Xizir gəlir.

“...Oğlan atda yıqıldıqda, Boz atlu Xizir oğlana hazır oldı. Üş qatla yarasın əlilə sığadı. Sana bu yaradan, qorqma oğlan, ölüm yoqdır. Tağ çiçəki, anan sudı ilə sənin yarana məlhəmdır, dedi, ğayıb oldı.” (Məhəmmədxani, 1999, s.51)

Kərəm Əslini axtarma sürəcində Ərzurum gədiyində Lələ ilə birlikdə qarboranda bir mağarada qalırlar. Burada Lələ ölür. Kərəm də neçə bənd söz oxuyur, ağlayır huşdan gedir. Xızır onu mağaradan qurtarır.

“...Kərəm sözlərin təmamə yetirib ağladı. Bihuş oldu. Amma bir vəqt aynıyıb gördü. Bir nuranı qoca kişi əyləşib bunun başının üstündə.

Kərəmə dedi: Niyə ağlırsan? Dərdin nəmədi? Nə olub sənə.

Kərəm fikrə getdi. Dedi: Görəsən bu ətrafın qoca kişilərindəndi? Nəzərində belə fikr elədi. O fikrinə yetişmədi, həzrət-i Xizrdi.

Xəbər aldı: Ay qoca əmi, sən burda neylirsən? Bu dağın başında, bu küləklixdə bu boranda, bizə hardan gəlibsən imdad elirsən?

Lələ burda dünyanı vida eləyib.

Həzrət-i Xizr özün tanıtdırdı... Həzrət-i İlyas dəryadə qərq olanlara nicat verər. Gədikdə qalanlara həzrət-i Xizr nicat verər.

Tanıdı bu həzrət-i Xizrdi. Dolanıb başına. Döşəndi əyaqlarına. Dedi mola sən bizi yad eləyibsən...” (Əsgəri, 1974-5)

**Yuxu Görmək**

Qazanın evi yığmalanır. Yatır yuxu görür.

“...Məgər Xanım, ol gecə qalın Oğuzın dövləti, Bayındırxanın kuygusı, Ulaş oğlı Salur Qazan qara qayğılu vaqiə gördi...” (Məhəmmədxani, 1999, s.64)

Bizim çoxlu aşıq dastanlarımızda yuxu görmə motivini görmək olur. Buta vermək, olay savı, sorun çözümü və s. yuxu görürkən olur. “Şirin ilə Birçək xanım”, “Şah İsmayıl”, “Məsum ilə Diləfruz” vs. dastanlarımızda yuxu görmək izləri var.

Yetim Seydi qazandığını dərvişə verib, gəlir evlərinə. Bu iş üç gün təkrar olur. Son gün anası Seydini danlayır. Yetim Seydi evdən çıxıb gedir Təbriz şəhərinin eşiyinə. Bir burcun yanında o qədər ağlayır. Özündən gedir. Həzrəti Əli bunun yuxusuna gəlir.

“...Yuxusuna kimlər gəldi. Borclunu borcdan qurtaran, günü məğribdən qaytaran, ağalar ağası, Şahı Mərdan...” (Əsgəri, 1974-5)

**Suya Söz Oxuma**

Qazan yuxu görəndən sonra yurduna dönür. Bir kimsə görmədən elinin talan olmasını bilib, yola çıxır. Yolda önünə su gəlir. Qazan sudan soruşur:

“...çağnam- çağnam qayalardan çıqan su
Ağa gəmiləri oynadan su
Həsənlə Hüseynin həsrəti su
...Ordumın xəbərin bilurmisin degil mana!
Qara başım qurban olsun suyım sana, dedi.” (Məhəmmədxani, 1999, s.66)

*5-1.* Aşıq Qərib Hələbə getdikdən sonra qardaşı Heydər də onun dalısıca getmək istəyir. Gelib yolda Tona çayına çatır. Tona çayına söz oxuyur.

“...Heydər gəlib Tona çayının yanına. Gördü su buna geçık verməyəcək. Alır Tonaya bir dəsgah söz oxusu:

Biz də gəldik bu Tonanın başına
Tona yol ver mən də səndən geçəyim
Əl eylərəm çanğılına, daşına
Tona yol ver mən də səndən geçəyim

Görüm sənin çeşmələrin qurusun
Dört bir yanın süsən sunbul bürüsün
Bir yol ver sən müşgül Heydər yerisin
Tona yol ver mən də səndən geçəyim

Qərib gedib qurbət eldə qalıllar
Yanar odu şirin cana salıllar
Sevgilisin özgə yadlar alıllar
Tona yol ver mən də səndən geçəyim" (Əsgəri, 1974-5)

*5-2.* Qurbani, Pəri xanıma çatmaq üçün yola çıxır. Arazla Kür çaylarının qovuşağında su buna geçik vermir. Orda suya söz oxuyur.

"...Söz oxusun. Görək, su bulara geçık verəcək ya yox. Biz də ərz eləyək möhtərəm eşidənlər salığına:

Badi səba peyğam apar
Məndən o gül üzlü yarə
Aylar illər duasıyəm
Məni cigər hizar parə
Sözünü oxur amma məşuq-i canan yaddan çıxmır.

Eşq camın içmək olmaz
Göyül sirrin açmaq olmaz
Heç nəhvinən geçmək olmaz
Təvəkkül pərvərdigarə

Qurbaniyəm varə varə
Qaldım çöllərdə avarə
Gəldim, gəlməmiş diyarə
Məni cigər hizar parə" (Əsgəri, 1974-5)

*5-3.* Tahir Mirzə neçə ildən sonra öz yurdu Rudbara gəlir. Bir çoban araçılığı ilə, bir sandıq içində Zöhrə xanımın yanına gedir. Qalada bunlar bir-birləri ilə görüşüb, danışırlar. Xəbər gəlib çatır Hatəm Sultana. Hatəm Sultan adam göndərir.

"...Xəbər verdilər: Hatəm Sultanın adamları gəlir. Tahir dedi: Məni sandığınan suya at.

Başına döndüğüm ay Zöhrə xanım
Qoy aparsın görək su mənə neynər
Dolanım başıva mən olum qurban
Qoy aparsın görək su mənə neynər

Tahirin sandığın yondu bir naşı
Ona pərvaz edən göylümün quşu
Yunisi dəryadə saxlıyan kişi
Qoy aparsın görək su mənə neynər" (Əsgəri, 1974-5)

**Ağaca Söz Oxuma**

Salur Qazanın oğlu Uruzu kafirlər qənarəyə çəkmək istəyirlər. Uruz ağaca söz oxuyur.

"...Ağac- ağac diyərsəm sana, ərlənmə ağac!
Məkkə ilə Mədinənin qapusı ağac,
Musa kəlimin əsası ağac,
Böyük- böyük suların köprısı ağac,
...Dibin ala baqar olsam, dıbsuz ağac,
Məni sana asarlar, götürmə gil ağac, ..." (Məhəmmədxani, 1999, s.74-75)

Qurbani Arazla Kürün qovuşuğunda çaydan keçib. Gəncə şəhrinə yetişməmiş yıxılıb sazı sınır. Gəlir bir saz bağlayanın yanına. Ondan bir düzgün saz istəyir. Sazçı ən üstün sazını Qurbaniyə verir. Ancaq bu sazın səsi çıxmır. Qurbani saza söz oxuyur.

"...Amma Qurbani burda neylədi, əimmənin (imamların) peyğəmbərin adlarında, əcib bir hikmət var. Dedi: yaxçısı budur, buların adlarılan bunu danışdırım. Bəlkə bu saz dilə gəldi. Görək danışdıra biləcək ya yox.

Sazım sən mənilən danış
Sənin əslin ağacdandı
Ağac desəm ar eyləmə
Xurma da var ağacdandı

Hanı İsa, hanı Musa
Cəm olanlar gedər tasa
Musa əlindəki əsa
Əsa da var ağacdandı

Açıldı söbhün kəlamı
Aləmə düşdü səlamı
Ağam Əbbasın ələmi
Ələm də var ağacdandı

Açıldı söbhün işığı
Mələklər çəkər keşiği
Həsənlən Hüseyn beşiği
Beşik də var ağacdandı" (Əsgəri, 1974-5)

**Ov Ovlamaq və Tanışlıq**

Beyrəkə ad qoyulandan sonra ova çıxır.

"...Nagahdan oğuzın üzərinə bir sürü keyik gəldi. Bamsı Beyrək birini qova getdi. Qova qova bir yerə gəldi. Nə gördü sultanım! Gördü gög çayırın üzərinə bir qırmızı otaq dikilmiş. Ya rəb!..." (Məhəmmədxani, 1999, s.89)

Şah İsmayıl ərgənlik çağına çatır. Başında nökər, bahadur, ova çıxır. Ovda bir ceyran görürlər. Şah İsmayıl bu ceyranı qovur. Ceyran, Gülzar xanımın ceyranı olduğuna görə, Gülzar xanımın çadırına gəlir.

"...Ceyranı təqib elədi. Ta o zaman yetişdi səhrayə gördü. Bu qədir burda çadır var. Lam əlif la kimin tənab tənabidən geçib. Amma bir bulağın başında yeddi dənə çadır vurulub. Bu ceyran burda napədid oldu." (Əsgəri, 1974-5)

**Qadınların Kişi Paltarında Güləşmələri**

Banı Çıçəklə Bamsı Beyrək güləşir.

"...Həman Beyrək atdan endi, qarvaşdılar, iki pəhləvan olub bir birinə sarmaşdılar, Beyrək götürər, qızı yerə urmaq istər, ..." (Məhəmmədxani, 1999, s.91-92)

Şah İsmayıl Gülzar xanıma çatma sürəcində Ərəb zənginin yaylağında dincəlmək istəyir. Ərəbzəngi bir qadın olaraq ərkəklər paltarında bahadurlarla güləşir. Onlara üstün gəlir. Şah İsmayıl ilə də güləşir ancaq yenilir.

"...Ərəbzəngi ətrafdan təmaşa elir. Xob cavan! qurtardın. Durublar dubarə əyaq üstə məşğul oldular cəngə. Əvvlin mərhələ Şəhzadə yapışıb gəribanı Ərəb zəngidən qovzayıb kəlləsinə. Qəbirqəsi üstündə dolandırıb. Vurdu yerə..." (Əsgəri, 1974-5)

**Sav Gətirmək və Köynək**

Banı Çiçəgin qardaşı Dəli Qoçar Bayındır Xanın divanına gəlir. Beyrəkdən xəbər gətirənə ödül verməsini söylür.

"...Yalançı oğlı Yaltacuq aydır: Sultanım, Bən varayın, ölüsi dirisi xəbər gətürəyin, dedi.

Məgər Beyrək buna gömlək bağışlamışdı..." (Məhəmmədxani, 1999, s.101)

Aşıq Qərib dastanında Qərib istəyir gedə Hələbə. Orada işləyib pul qazanandan sonra gəlib Şah Sənəm ilə toy edə. Tiflisdən çıxarkən bunun rəqibi Şah Bələd də buna yoldaş olur. Çaydan keçəndə bunlar paltarlarını dəyişirlər. Qərib çayı keçir. Ancaq Şah Bələd şəhərə qayıdır.

"...Sora Hələbə tərəf yola düşdü. Yolda Şah Bələd Qəribi görüb, dedi: Hara gedirsən Qərib? Qərib cavab verdi: Hələbə işləməyə gedirəm. Şah Bələd dedi: Bəs mən də sənlən gəlirəm. Birlikdə gəlib Dona çayına çatdılar. Şah Bələd hilə eləyib paltarlarını Qəribinən deyişdi. Qərib çaydan geçdi. Ancaq Şah Bələd gəldi öz şəhərlərinə. Bir dəllal görüb. Qəribin paltarlarını verdi ona, dedi: Apar Şah Sənəmin imarətinin qabağında bunları sat. Dəllal gəlib. Çağırdı paltar alan.

Şah Sənəm Qəribin paltarların görüb soruşdu: Sən bu paltarları hardan gətiribsən?

Dedi: Bir adamdan ki deyirdi birini su aparıb. Onun paltarları idi.

Şah Sənəm belə fikir elədi ki Qəribi su aparıb..." (Əsgəri, 1974-5)

**Bazırganla Sav Göndərmək**

Yalançı oğlu Yalancuq kiçik dügünü olur. Beyrəgin babası Bay Börəg, oğlunun dalısıca bəzirgan yollayır.

"...Mərə bazərganlar varın. Iqlim arayın! Beyrəgin ölüsi dirisi xəbərin gətürəydiniz, ölimidir?..." (Məhəmmədxani, 1999, s.102)

*10-1.* Qərib gedəndən sonra Şah Bələd, Şah Sənəmə elçi göndərir. Bala şirni olunur. Şah Sənəm bir namə yazır Qəribə. Ilk Xacə Əziz, sonra Xacə Bağırla Hələb şəhərinə göndərir.

"...Bir Xacə Əziz adında tacir varıdı. Şama tərəf gedirdi. Gəlib Xacə Əzizi tapdı. Soruşdular Xacə hansı mahala gedirsən? Cavab verdi: Hər tərəfə yolum düşür. Bir namə var əyər bizim musafirimizi tapsan ona verəsən. Xacə dedi:

Balam, sənin nəyindi? Şah Sənəm cavab verdi: Xacə, mənim sevgilimdi.

Başına döndügüm gül üzlü xacəm
Gedər olsan Qərib yara di gəlsin
Qismət ola sən də gedən Məkkəyə
Gedər olsan Qərib yara di gəlsin...” (Əsgəri, 1974-5)

*10-2.* “...Deyirlər Xacə Bağırın yolu düşür Tiflisə şəhərinə. Şah Sənəm xacənin gəlməsin bilib. Xacənin yanına gəldi. Soruşdu: Xacə sən bu ölkələri gəzərsən? Dedi: Bəli. Dedi: Olur biz bir kağaz yazaq, sən aparasan?

Xacə dedi: Hara?
Şah Sənəm dedi: İcazə ver deyim:
Başına döndügüm gül üzlü xacəm
Xacəm səfər eylə Rum ellərinə
Nərlər yattıb, mayələrdən yük əndir
Elçi sal Hələbə Şam ellərinə...”
(Əsgəri, 1974-5)

**Ozan Kimi Toya Getmək**

Beyrək Bayburd hasarında qaçıb, gəlir. Yolda bir ozanla qarşılaşır.

“...Beyrək aydır: Mərə ozan qopuzın mana vergil... Ozan qopuzı beyrəgə verdi. Beyrək qopuzı aldı. Babasının ordusına yaqın geldı...” (Məhəmmədxani, 1999, s.108)

Aşıq Qərib, Hələbdən Tiflisə gəlir. Şah Sənəmin toyuna gedir.

“...Qərib durub gəldi Şah Sənəmin toyuna. Şah Bələdin toyunu bir toybəyi icarə eləmişdi. Toyun hər işi ona bağlı idi. Gördülər aşıq gəldi. Aşığa yer verdilər oturdu. Toybəyi gəlib, dedi: Ay aşıq mənim toyumda gözəl oxuyacaqsan. Qərib alır toya söz oxusun, söz arasında da özünü tanıtdırsın:

Başına döndügüm əyləşən bəylər
Üç aylıq yolları bir gündə gəldim
Ürəyimi alıb qubarı qəmlər
Üç aylıq yolları bir gündə gəldim...”
(Əsgəri, 1974-5)

**Görməz Gözlərin Şəfası**

Beyrəkin anası ağlamaqdan gözləri, görməz olmuşdu. Beyrəgin serçə barmağının qanı onun gözlərinə şəfa olur.

"...Dəstmalı gözlərinə silcək, Allah təalanın qudrəti ilə gözi açıldı..." (Məhəmmədxani, 1999, s.123- 124)

Aşıq Qərib, Hələbə gedəndən sonra, anası ilə bacısı ağlamaqdan gözləri görməz olmuşdu. Qərib Tiflisdən qayıtdıqdan sonra Düldülün pəncəsinin torpağıla onların gözlərini toxtadır. (düldül: Həzrəti Əlinin atı)

"...Ana bala qol boyun olub görüşdülər. Əli həzrətləri Mamaz daşında Düldülün pəncəsinin torpağından Qəribə vermişdir. Qərib o torpağı bunların gözlərinə sürtüb onların gözləri işığa gəlib gördü..." (Əsgəri, 1974-5)

**Xəbərsizlik**

Yegnəg atasının dustaq olmasından xəbərsiz idi.

"...Günlərdə bir gün Yegnəg oturub. Bəglərlə söhbət edərkən Qara Günə oğlı Budaq ilə uz düşmədi, bir birinə söz atışdılar, Budaq aydır: Bunda laf urub nədirsən? Çünkı ər dilərsən, varub babanı qurtarsana, nə, onaltı yıldır tutsaqdadır? dedi, ..." (Məhəmmədxani, 1999, s.189)

Koroğlunun oğlu Həsən Bəg atasının kim olduğunu bilmir. Keçəl oğlan onu atasız çağıraraq. Həsən Bəg anasından atasının kim olduğunu sormaya gəlir.

"...Həsən Bəg böyüdü. On səkkiz yaşına çatdı. Oğlanın boy buxunu sir-sifəti eynən Koroğlu özü. Hamı onun əlindən zarə gəlmişdi. Onun adını Kurdoğlu (Qurd oğlu) çaqırardılar. Ərəb Paşa onu yanına çaqırdı, nəsihət dedi, başa gəlmədi. Bir gün oynadığı yerdə sözü çəpləşdi. Bir keçəl dedi: Ay nənəsi oğlu, sənin dədən yoxdur. Mən sənə nə eyləmişəm, məni döyürsən? Atasından bixəbər, kim bilir sənin atan kimdi? Bu söz Kurdoğluna çox ağır gəldi. Ordan evə anasının yanına gəldi. Dedi: Ana mənim atam kimdir? Möminə xanım dedi: Oğul sənin atan yoxdur. Kurdoğlu dedi: Ana düzün deməsən səni də özümü də öldürərəm. Axır möminə əlacı kəsilib. Dedi: Oğul atan paşaları zarə gətirən çənli beldə qoç Koroğludı..." (Əsgəri, 1974-5)

**Təpə Göz**

Uruz Qocanın çobanı pəriyə gözü düşüb, cima edir. Bir il sonra pəri çobandan olan uşağı gətirib çobana verir.

“...Bu yığınaq yarıldı, içindən bir oğlan çıqdı. Gövdəsi adam, dəpəsində bir gözi var...” (Məhəmmədxani, 1999, s.200)

Kərəm Əslinin dalısıca gəlir. Gürcustan topraqlarında fərqli adamlara tuş gəlir. Bunların andlarında gözləri var.

“...Gəliblər bir yerə yetişdilər. Gürcustanın bir məntəqəsinə...Bir iddə oturublar. Dor cəm eyləşiblər. Vəli amma buların bir qismətləri təqribən bulara bənzir, bir qismətləri bu adamlara bənzəmir. Bir qismətlərinin andında gözləri var...” (Əsgəri, 1974-5)

### Başqasının Yerinə Savaşa Getmək

Oğuz Təpəgözün önündə dura bilməyib, Dədə Qurqudun araçılığı ilə gündə iki adam, beş yüz qoyun Təpə Gözə verməli olurlar.

“...Qapaq Qan deyələr bir kişi varıdı; İki oğlı varıdı, bir oğlın verub, biri qalmışdı. Geru nobət dolanub, ana gəlmişdi...” (Məhəmmədxani, 1999, s.202)

Şah İsmayılı həzrəti Əlini quyudan qurtarır. Ərəbzəngi Şah İsmayılın öldürülməsini bilib. İbrahım Şahın qoşunu ilə savaşmaqdadır. Qoşun az olduğuna görə budundan da kişiləri ərəb zənginin savaşına göndərirdilər.

“...Qoşun ki yetişmişdi nobəyə. Hər evdən bir nəfər gedərdi, cəng elərdilər. Öldürürdü. axırında day düşmüşdü yosqul varlı day bunlara baxmazdı.

Bir Qəri varıdı. Həmun şəhri Kişmirdə. Bir oğlu varıdı dəri dünyada. Nobət yetişdi bu qərinin oğluna... Şahzadə Qərini gördü. Oturubdu öz damlarının kənarında ağlayır. Dedi: Qəri nənə! Niyə ağlırsan? Nəxəbər vardı?...Bir dənə darı dünyada mənim oğlum var. Onun da sabah nobəsidi gedəcək. Fəqət ondan ötrü ağlıram. Bilirəm getsə day gəlməyəcək. Nənəcan olur. Indi sən məni özüvə oğul eləyən. Mən sabah gedəm meydana...” (Əsgəri, 1974-5)

### Atanın Kim Olduğunu Anadan Soruşma

Uşun Qocanın oğlu Səgrək Alinca də dostaq olur. Balaca oğlu Əgrək bunu bilmədən günlərin bir günü bir öksüz oğlanı şillə ilə vurur.

“...Öksüz oğlanın dili acı olur, biri aydır:...Bizi niyə urasan? Hünərin var isə qarataşın Alinca qələsində əsirdir; var anı qurtar!

Əgrək gəlib evə anasından soruşur.” (Məhəmmədxani, 1999, s.232)

Koroğlu Dərbənd səfərində Mömină ilə toy edir. Neçə gündən sonra ÇənliBelə qayıdır. Mömină xanımdan bir oğlan olur. Adını Həsən Bəg çağırırlar. Həsən atasının kim olduğunu bilməyir. Həsən Bəg gün gələ böyüyür.

“...Həsən Bəg böyüdü. On səkkiz yaşına çatdı. Oğlanın boy buxunu sir sifəti eynən Koroğlu özü. Hamı onun əlindən zarə gəlmişdi. Onun adını Kurd oğlu (Qurd oğlu) çaqırardılar. Ərəb Paşa onu yanına çaqırdı, nəsihət dedi, başa gəlmədi. Bir gün oynadığı yerdə sözü çəpləşdi. Bir keçəl dedi: Ay nənəsi oğlu, sənin dədən yoxdur. Mən sənə nə eyləmişəm, məni döyürsən? Atasından bixəbər, kim bilir sənin atan kimdi? Bu söz kurdoğluna çox ağır gəldi. Ordan evə anasının yanına gəldi. Dedi: Ana mənim atam kimdir? Mömină xanım dedi: Oğul sənin atan yoxdur. Kurdoğlu dedi: Ana düzün deməsən səni də özümü də öldürərəm. Axır mömină əlacı kəsilib. Dedi: Oğul atan paşaları zarə gətirən çənli beldə qoç Koroğludı...” (Əsgəri, 1974-5)

**Quyuya Salma**

Qazan ova çıxır. Ovda Qazanı kiçik ölüm tutur. Duşmanlar Qazanı tuturlar.

“...Hələ Qazanı gətürdilər. Tumanın qələsində bir quyuya bıraqdılar. Quyunun ağzına bir dəgirman taşı qoydular...” (Məhəmmədxani, 1999, s.246)

*17-1.* Şah İsmayıl üç qadını yanında neçə ildən sonra atasının yurduna gəlir. Atasının yoldaşları, oğul ilə atanın arasına ayrılıq salırlar. Ata istəyir, Şah İsmayılı öldürə. Vəzir (baxan) səlah bilmir. Sonra quyuya atmasını önəri verirlər.

“...Vəzir Şəhzadənin başının kəsməsin səlah bilmədi. Dedi: Sən aparasan, salarsan quyuya. Öz əcəlinən özü beyindən gedər. Ölər. Əlan sən bunu öldürsən səlah dəyil. Səlah bu yerdə biliblər. Şəhzadəni gətirib, şəhərin kənarında 40 metrlik quyu varıdı. Saldılar quyunun təhinə...” (Əsgəri, 1974-5)

*17-2.* Şah Abbas, Qul Əbdulla ilə Sarı Xacəni beş yüz qoşunla Tufarqana göndərir. Bunların görəvləri Gülgəz xanımı Şah Abbasın yanına aparmaları ıdı. Bunlar gəlib, Gülgəz xanımı aparırlar. Abbas bunu bilcəgin onların izin tutub, gəlir. Zənganın Nimavər bölgəsində olan Saman Ərxi adlı bir yerdə qoşun adamları Abbası quyuya salırlar.

“...Qoşun gəldi çatdı Nimavərə. Abbası tutdular. Saldılar o quyuya. Özləri getdilər...” (Əsgəri, 1974-5)

*17-3.* Topal Paşa Govur Rəzmin qızı Pəri Xanımın qalasına geçə bilmir. Savaş alanında da onu yenə bilmirlər. Bir Qəri arvat çağırırlar. Yetim Seydi ilə Pəri Xanımın necə tutsaq olmasına ondan çözüm istəyirlər. Qəri bu sorunun çözümünə söz verir. Çəkdiyi tasarı ilə qalaya gəlir. Bunların yeməklərin bişirir. Bir gün bunların düyülərinə ağı qatır. Bunlar huşdan gedirlər. Əl əyaqlarını bağlayıb, qoşuna tütün tütüzdürərək xəbər verir. Qoşun gəlib. Qalaya girirlər. Pəri Xanımı köşgə aparırlar. Yetim Seydini də öldürmək istəyirlər. Ancaq insan sevər vəzir (baxan) onu quyuya atmasını önərir. Belə də olur.

"...Kafər vəzir dedi: Seydinin başın kəsin.

Müsəlman vəzir dedi: Yox. Elə bu cür qalsa özü ölər.

Kafər vəzir dedi: Yox. Yoldan keçən olar. Bunun qollarını açar. Bu gələr şəhərə vəlvələ salar. Gərək öldürək.

Müsəlman vəzir dedi: Öldürsəz də başın kəsməyin. Bu yaxınlıqda bir quyu var. Salın ora..." (Əsgəri, 1974-5)

**Ata İlə Oğul Savaşması və Oğulun Üstün Gəlməsi**

Uruz gəlir atasını dostaqdan qurtara. Qazan öz igitləri ilə savaşaraq onları yenir. Ancaq öz oğluna yenilir.

"...Uruzun cılavısın əmisi Qara Günə tütmişdi. Çəkdi, ansuzın əlindən aldı. Qılıncını taratdı, babasınınn üzərinə at saldı. Turundurmadı, çigninə qılıc endirdi, geyimini kəsdi, omuzına dört parmaq dəklu zəxm urdı..." (Məhəmmədxani, 1999, s.260)

Koroğlunun Dərbənd səfərində. Oğul atasını tapmaq üçün Çənli Belə gəlir. Çənli Belin yaxınlığında Koroğlunun neçə dəlisini tutub, əl qolların bağlayır. Bu xəbər Koroğluya çatır. Koroğlu gəlib, öz oğlu ilə güləşir.

"...İkinci yol tutuşdular. Kurdoğlu bu dəfə zor gəlib, Koroğlunun sinəsinə çökdü. Dedi: Qoca de görüm sən kimsən?

...Yenə də Kurdoğlu, Koroğlunu yıxıb dedi: Bu ikincidi, bir də yıxsam başın kəsərəm." (Əsgəri, 1974-5)

**V. Sonuç**

Dədə Qorqud boylarından, çeşitli bölümlər aşıq nağıllarına sızaraq, keçmişlə bu günümüzün arasında bir ilişki qurmaqdadır. Aşıq nağıllarımızı yenidən araşdırıb

incələməklə bu ortaq bölümlərin sayının artırılmasını görəcəyik. Dastanlar ortasındakı ortaq bölümlər bir ip ucu olaraq Dədə Qorqud boylarını yenidən canlandıra biləcək görəvini daşıya bilirlər. Biz burada yalnız 18 ortaq bölüm üzərində çalışma apardıq.

## Notlar

Aşıq İzzət ƏZİZİ (1919-2006)

Zənganın "Bardağac" kəndində doğulur. Əsgərlik dönəmindən sonra ünlü aşıq Qamətin yanında saz və söz öyrənir. 40 aşıq nağılı bilirdi. Bir dönəmdə saz bağlamış və aşıqlara sunmuş. Bildiyi nağılları yazılı və səslı aşıqlar ortasında yaymaya çalışmışdı. Zəngan aşıq muhitinin bilici aşıqlarından sayılırdı. 2006-ci ildə Zənganda yaşamını bitirdi. Məzarı Bardağac kəndindədir.

Aşıq Müslüm ƏSGƏRİ (1938 -)

Zənganın "Badamıstan" kəndində doğulmuş. 6 il dinsəl təhsil almış. Atası Aşıq Zöhrabdan aşıq sənətinin sirlərini öyrənmiş. İranın çeşidli yerlərində düyün və yığnaqlara qatılmış. 120-dən çox kaset üzərinə aşıq nağılı oxumuş. Uluslararası sempozyumlara qatılan bir aşıq.

## QAYNAQÇA:

### Yazılı qaynaqlar

QASIMLI, Məhərrəm, Ozan- Aşıq Sənəti, Uğur Nəşriyyatı, Bakı 2007.

IMAMVERDIYEV, İlqar, Azərbaycan Və İran Aşıq Sənətinin Qarşılıqlı Əlaqələri, Nafta- Press Nəşriyyatı, Bakı 2008.

KAFKASYALI, Əli, İran Türkləri Aşıq Mühitləri, Salkımsöğüt Yayınları, Erzurum 2009.

MƏHƏMMƏDXANİ, Hüseyn, Dədə Qorqud Kitabı, Tehran 1999.

### Sözlü qaynaqlar

Aşıq Müslüm Əsgəri, 1974-5, Zəngan. İran.

Aşıq İzzət Əzizi. 2001. Zəngan. İran.